# Kiçikyaşlı məktəblinin emosional inkişafı

**Türkan Tahir qızı Hacıəhmədova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** haciehmedovaturkan@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d., dos.F.M.Allahverdiyeva

**Açar sözlər:** təlim, emosional, qorxu, qısqanclıq, aqressiya, narahatlıq
**Ключевые слова:** обучение, эмоциональный, страх, ревность, агрессия, тревог
**Key words:** training, emotional, ember, jelousy, aggression, anxiety

Kiçik məktəblinin yaş mərhələsi adlandırdığımız dövr 6-10 yaşları əhatə edir. Hər bir dönəmdə olduğu kimi bu dönəmdə də uşaqlarda həm fiziki, həm psixi, həm də sosial inkişaf baxımından dəyişiklik müşahidə olunur. Bu yaş dövründə nəzərə çarpan cəhətlər – psixi hadisələrin ixtiyariliyi, hərəkətlərin daxili plana malik olması, yəni interiorizasiyanın meydana gəlməsidir. Bu yaş dövründə uşaqlarda qeyri-ixtiyarı diqqət, mexaniki hafizə, konkret təfəkkür üstünlük təşkil edir. Bu dövrdə uşaq təlim oyun fəaliyyətini üstələyir və təlim əsas aparıcı fəaliyyətə çevrilir. Təlim fəaliyyətinin aparıcı rol oynaması kiçik məktəblinin psixi-sosial inkişafı ilə əlaqədar emosional inkişafına da şərait yaradır. Bu səbəbdən emosional sferanın əsas komponentləri olan qorxu, məktəb fobiyası, qısqanclıq, aqressiya, narahatçılıq və s. kimi bəzi tipik həyəcan formalarında da dəyişiklik baş verir.

Qorxu - uşaqlarda yaş artdıqca qorxularda artmaqdadır. Qorxunun yaranma səbəbləri müxtəlifdir, lakin ortaq xüsusiyyət, ani və birdən-birə baş verməsi, bunun sonunda isə uşağın yeni vəziyyətə uyğunlaşmamasıdır. Kiçik məktəblinin qarşılaşmış olduğu qaydalar, həyəcanı artıran digər faktorların yaranmasına təsir göstərir (yorğunluq, aclıq, yuxusuzluq kimi). Bir uşağın nə zaman qorxacağı, hansı situasiyada və nədən qorxacağını müəyyən etmək olduqca çətindir. Qorxunun yaranması, ətrafdakı qaydalara, xəbərdarlığın veriliş formasına, keçmiş hadisələrə, o andakı fizioloji və psixoloji vəziyyətə bağlıdır. Bir çox alimlər qorxu üzərində tədqiqat işləri aparmışlar. Belə bir eksperimentə nəzər salaq: 4-15 yaş arası kənd uşaqları ilə aparılan eksperimentdə qorxuya səbəb olan amillərin 75%-nin heyvanlarla bağlı olduğu müəyyən edilmişdir. Oğlan uşaqları vəhşi heyvanlardan, qız uşaqları isə həşəratlardan qorxurlar. Heyvanlardan əlavə müəyyən olunan qorxular arasında yanğın, qaranlıq və xəstəlik hesab olunur. Qorxu vəziyyətində reaksiyalar obyektdən uzaqlaşmaq istəyi, ağlamaq, nəfəs tutmaq kimi fərqli davranış nümunələri əsasında ortaya çıxır. 3 yaşından etibarən uşağın öz həyəcanını idarə edə bilməsi diqqəti cəlb edir. Uşaqların qorxularına təsir göstərən bir çox faktorlar var, onlar aşağıdakılardır:

1. Zəka
2. Cinsiyyət
3. Sosio-iqtisadi status
4. Sosial münasibətlər
5. Fiziolojik şərtlər
6. Şəxsiyyət quruluş.

Məktəbəqədər dövrdən nisbətən kiçik məktəbli dövrdə qorxular təkmilləşmiş şəkildə özünü büruzə verir. Qorxular bu dönəmdə artmalarla xarakterizə olunur. Bu dövrdə ən çox rast

gəlinən qorxular arasında oğurluq, xəyali varlıqlar, itlər, qaranlıq, şimşək, ani səs və tək qalmaq sadalana bilər. 6-12 yaşlarından etibarən bu xarakteristik qorxuların get-gedə azaldığı, bunların yerlərinə bədənsəl yaralanma, məktəblə əlaqədar hadisələr sosial münasibətlərin daxil olduğu qorxu formalarının aldığı görülür. Bu qorxuların bir qisminin yeniyetməlik və gənclik dövrlərində də davam etdiyi diqqəti cəlb edir. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, qorxular ümumilikdə 6 yaşdan etibarən 12 yaşadək azalmağı aşkar olunmuşdur. Lakin, birinci sinif yaşındakı uşaqların 50%-dək dəyişik vaxtlarda görülən və itən müxtəlif növ qorxuların olması müəyyən olunmuşdur. 11 yaşından etibarən qorxularda nəzərə çarpan bir azalma müəyyən olunmuşdur. Yeni tədqiqatlarda qızlarda oğlan uşaqlarına nisbətən daha çox qorxuya rast gəlindiyi sübut edilmişdir.

Uşağın başına gələn mənfi bir hadisə və ya təcrübə onda bəzi qorxuların yaranmasına səbəb ola bilər. Məsələn: xəstəxana ilə əlaqədar xoş olmayan bir təcrübə keçirən uşaq, tibb bacısı və həkimlərdən qorxa bilər. Uşağı təhdid edərək nəyəsə yönləndirməyə çalışmaq, uşaqda yeni bir qorxuya səbəb olan amillərdəndir. “Atan gəldiyi zaman aşağı qiymət aldığını söyləyəcəyəm!” və ya ”Bir daha bu hərəkəti etsən səni həkimə aparıb iynə vurduracam!” kimi ifadələr illər boyunca davam edə biləcək qorxuların yerləşməsinə səbəb ola bilər. Xəyal gücü geniş olan uşaqlarda bəzi nağıllarla əlaqədar olaraq bir sıra qorxular da yer ala bilər. Bəzi irəliləmiş qorxular, bacarıqlı təlim forması, uşağa veriləcək sevgi, inam və özünə inam duyğusu ilə aradan qaldırıla bilər. Qorxan uşaq qorxuları səbəbi ilə tənqid edilməməli, lağa qoyulmamalıdır. Qorxulara real yanaşılmalı və olduğu kimi qəbul edilməlidir. Uşağı qorxduğu obyektlə də üz-üzə gətirilməsi yanlış davranışdır. Onun qorxduğu obyektdən uzaqlaşmasına icazə verilməli və ona güvən duyğusu aşılanmalıdır.

Qısqanclıq - Ziqmund Freydə görə, uşaq dünyaya gəldiyi andan qısqanclığın əlamətləri özünü büruzə verir. Uşaqda körpəlik dövründə yaranan ilk qısqanclıq valideynlərinə qarşı olan qısqanclıqdır. Oğlan uşaqları anasına, qız uşaqları isə atasına qarşı qısqanclığı müşahidə olunur. Freyd bunu edip və elektra kompleksi adlandırmışdır. Yaş artdıqca uşaqlarda qısqanclığında forması dəyişir. Kiçik məktəb dönəmində uşaqlarda ən böyük qısqanclıq eyni sinifdə oxuyan uşaqlar arasında baş verir. Bir-birilərinə qarşı rəqabət güclənir. Dərsdə uğur qazanmaq uğrunda mübarizə aparırlar. Kiçik məktəblilərdə qısqanclığı formalaşdıran ən güclü amillərdən biri də mühit amilidir. Mühit bir çox hallarda ictimai xarakter daşıyır, daha çox uşağın sevdiyi insanları nəzərdə tutur. Qısqanclıq həyəcan və qəzəb nəticəsində formalaşır, ifadə forması isə psixo-sosial təsir formasıdır. Qısqanclıqda bir sıra qarışıq duyğu və implus rol oynayır. Qısqanclığın yaranma səbəbi kimi uşaqlarda diqqət, qayğı, sevgi, şəfqət əksikliyinin olmasıdır. Fərdin gizlətdiyi qəzəb hissi incimə olaraq da adlandırıla bilər. Qısqanclıq vəziyyətində bəzi qorxular tez-tez hiddətlə birləşir. Qısqanc insan sevilən biri ilə münasibətlərində özünü yalqız hiss edər və bu insanın sevgisi qarşısında öz statusunu itirəcəyindən qorxar. Xaricə yönəlmiş olan bir qısqanclıq hər zaman insanları, xüsusilə uşağın sevgi bəslədiyi insanlarla əlaqədar sosial bir hadisədir. İlk uşaqlıqda qısqanclıq ana atanı ya da ona baxan şəxslərlə əlaqədar olur, çünki uşaq diqqət və qayğını şiddətlə arzular, tez-tez özünü digər bir uşaqla müqayisə edərək görər. 2-5 yaşında olan uşaqlarda qısqanclıq evə yeni gələcək olan bacı və ya qardaşın stressini yaşamaqdırsa, kiçik məktəblillərdə qısqanclıq sinif yoldaşlarının bir qisminə, parta yoldaşına və ən sevdiyi müəllliminə qarşı çevrilmiş olur. Müəlliminin, parta yoldaşının diqqətini digər yoldaşları ilə bölüşmək istəməyən kiçik məktəbli bu haldan məmnun olmadığını göstərməkdən heç də çəkinmir və lazım gələrsə öz etirazını aqressiv davranış nümunəsi nümayiş etdirməklə, inciməklə, küsməklə büruzə verir.

Aqressiya-əsəbilik uşaqlar arasında geniş yayılmışdır. Aqressiya daha çox qıcıqla bağlıdır.

Kənardan qıcıq qəbul etdikcə uşaqlarda aqressiya daha şiddətli formada özünü büruzə verir. Aqressiv hərəkətlər kiçik məktəblilərdə qısamüddətli xarekter daşıyır. Bir çox alimlərin apardığı tədqiqatlardan məlum olmuşdur ki, ilk səkkiz il içində aqressiv reaksiyaların müddəti 5 dəqiqəlikdir. Aqressiv hallar tez baş verdiyi kimi tez də bitir və şən əhval-rühiyyə halı özünü dərhal büruzə verir. Kiçik məktəblinin aqressiv davranışı valideynlərinin qadağalarına, onlara reaksiyalarını göstərmək üçün istifadə edirlər. Evdə oyun oynamaq istədiyi halda ev tapşırıqlarını etmək məcburiyyətində olmaları, sinifdə yeni mühitə adaptasiya olunmaları, sinfin uşaqları ilə qarşılıqlı münasibəti zamanı yaranan maneələrdə öz aqressiv davranışlarını nümayiş etdirirlər.

Narahatlıq - bu hal özünü daha çox problemin səbəbini bilmədikdə, onun nədən qaynaqlandığını anlamadıqda yaranan emosional haldır. Yetkinlərdə və uşaqlarda müxtəlif formalarda özünü göstərir - gərginlik, əsəbilik, boş olmayan bir emosional vəziyyətdir. Xüsusilə özünü məktəbəqədər dövrdə göstərir. Çünki bu dövr də narahatlığa səbəb olan hadisələrə daha çox rast gəlinir. Uşaqda aqressivlik, cinsi ya da müstəqillik arzularını kifayət qədər ifadə edə bilməmənin çətinliyi narahatlıq kimi görülə bilər. Ailədə yeni dünyaya gələn uşaqda narahatçılığa səbəb olan amillərdəndir. Uşaqlarda narahatçılıq kimi halla sevgi doyumsuzluğu yaşadıqda da baş verir. Yəni uşaqlar da qayğıya, sevgiyə, diqqətə tələbat yaranır, lakin bu tələbatlar ödənilmədiyi halda uşaqlarda emosional narahatlıqlar yaranır.

Məktəb fobiyası - məktəbə qarşı olan istəksizlikdir. Uşaqda qüvvətli narahatlıq yarandığı zaman məktəbə getmək istəmir və bəhanələr gətirərək məktəbdən yayınmağa calışırlar. Belə uşaqlar məktəbə qarşı olan istəksizliyini tipik bir formada göstərir, yəni bədənsəl şikayətlənmələri ilə valideynlərini razı salmağa çalışırlar. Məktəb fobiyası olan uşaqlarda ürək bulanmaları, baş ağrıları və qarın ağrısı və bədənsəl şikayətləri daha çox sabahlar oyanar-oyanmaz görülməkdə və məktəbə getməmələrinə qərar veriib-verilməzdə öz-özlüyündə sona çatmasıdır. Belə bir bəhanələri aradan qaldırmaq üçün bəzən valideynlər bir çox tədbirlır görürlər. Məsələn: müəllimi dəyişmək, uşağı daha az uğuru olan sinfə göndərmək və məktəbi dəyişmək kimi tədbirlər ilk öncə yaxşı nəticə versədə, lakin qısamüddətli xarekter daşıyır. Belə vəziyyətlərdə uşaqlar xoşbəxt kimi görünsələr də bu bir müddətdən sonra yenidən evdə qalmalarla bağlı yeni bəhanələr yaranacaq.

**Məqalənin aktuallığı.** Kiçikyaşlı uşaqlarda həm fiziki, həm psixi, həm də sosial inkişaf baxımından dəyişiklik müşahidə olunur. Bu yaş dövründə uşaqlarda qeyri-ixtiyarı diqqət, mexaniki hafizə, konkret təfəkkür üstünlük təşkil edir. Tədricən uşaqda təlim fəaliyyətinin aparıcı rol oynaması kiçik məktəblinin psixi-sosial inkişafı ilə əlaqədar emosional inkişafına da şərait yaradır. Məqalədə də məhz bu kimi hallardan, yarana biləcək gərgin vəziyyətlərdən, eləcə də onların aradan qaldırılması yollarından söhbət açılır ki, bu da mövzunun aktuallığını bir daha sübut edir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə təlim fəaliyyətinin aparıcı rol oynaması nəticəsində yaranan və emosional sferanın əsas komponentlərindən sayılan qorxu, məktəb fobiyası, qısqanclıq, aqressiya, narahatçılıq və s. kimi bəzi tipik həyəcan formalarını əmələ gətirən amillərdən söhbət açılmaqla onların həlli yollarına toxunulur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri, tələbə və magistrantlar, eləcə də praktik psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Ə. Qədirov. Yaş və inkişaf psixologiyası. Bakı, 2010.
2. Ə. Bayramov, Ə. Əlizadə. Psixologiya. Bakı: Çinar-çap, 2006.
3. N.Z. Çələbiyev. Uşaq psixologiyası. Bakı, 2005.
4. N. Rüstəmova. Uşaq psixologiyası. Bakı, 2014.

**Т.Т. Гаджиахмедова**

## Эмоциональное развитие школьника маленького возраста

## Резюме

У детей маленького возраста наблюдаются изменения в плане физического, умственного и социального развития. В этом возрасте у детей преобладают непроизвольное внимание, механическая память, конкретное мышление. В этом случае обучение ребенка перевешивает игровую деятельность, в результате чего создаются условия для эмоционального развития юного школьника в связи с психосоциальным развитием.

В статье рассматриваются такие ситуации, возможные напряжения, а также способы их преодоления, страх, школьная фобия, ревность, агрессия, тревога и др., которые возникают в результате ведущей роли учебной деятельности и являются одним из основных компонентов эмоциональной сферы. Обсуждаются факторы, вызывающие некоторые типичные формы беспокойства, такие как, и способы их устранения.

**T.T. Hajiahmedova**

## Emotional development of a young schoolchild

## Summary

Changes are observed in young children in terms of physical, mental and social development. At this age, children are dominated by involuntary attention, mechanical memory, concrete thinking. In this case, the child's learning outweighs the play activity, as a result of which it creates conditions for the emotional development of the young student in connection with the psycho-social development.

The article discusses such situations, possible tensions, as well as ways to overcome them, fear, school phobia, jealousy, aggression, anxiety, etc., which arise as a result of the leading role of learning activities and are one of the main components of the emotional sphere. The factors that cause some typical forms of anxiety, such as, and their solutions are discussed.

**Redaksiyaya daxil olub:** 04.11.2020